## Yurdumuza Novruz gəlir

# Novruzun ilk çərşənbəsi - Su çərşənbəsi

Yurdumuza əsrlərin sınağından çıxmış mənəvi dəyərləri, adət-ənənələri özündə yaşadan, bayramlarımızın şahı sayılan Novruz gəlir.

Ta qədimdən Novruz təbiətin canlanmasının, torpağın oyanmasının, ruhun təzələnməsinin simvolu hesab olunub. Novruz yeni günü, baharın ilk gününü qarşılamaq, gecə ilə gündüzün bərabərləşməsi deməkdir. Xalqımız yeni gün olan Novruz ərəfəsində çərşənbələrə daha böyük önəm verir.

Rəvayətə görə, Tanrı ilk insanı - Adəmi yaradarkən torpağa su qatıb, palçıqdan insan düzəldib, sonra ona isti nəfəs verib, baharda çiçəkləri, otları, ağacları oyadan yellərə əmr edib ki, onu canlandırsın. İnsan da bu dörd ünsürdən yarandığı üçün tarix boyu onları müqəddəsləşdirərək, hərəsinə bir gün ayırıb. Beləcə, yazın - Novruzun müjdəçiləri olan Su, Od, Yel, Torpaq çərşənbələri yaranıb.

Bu il Azərbaycanda baharın müjdəçisi olan ilk çərşənbə - Su çərşənbəsi fevralın 26-da, Od çərşənbəsi martın 5-də, Yel çərşənbəsi martın 12-də, ilaxır olan Torpaq çərşənbəsi isə martın 19-u qeyd ediləcək.

Novruzun ilk çərşənbəsi - Su çərşənbəsidir. Su çərşənbəsi ilə




bayrama hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə su ilk çərşənbə kimi qeyd edilir. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti bir daha ifadə olunur. Bütün mifik mənbələrdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Qorxulu yuxuların suya danışılması ilə insanı izləyən qəzaların dəf olunması inamı türk mifoloji mətnlərinin əsasını təşkil edir.

Su üstündən atlanmaq, arzularını, diləklərini suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və s. bu ayinlərdəndir. İnanclara görə, sübh tezdən bulaqdan götürülən su min bir dərdin dərmanıdır.

Su həyat mənbəyi, aydınlıq rəmzidir.

Ömrünüz su qədər uzun və pak olsun!

## İdman xəbərləri

### «Qəbələ»nin gənc boksçularından 2 medal

Gənc boksçular arasında keçirilən Azərbaycan birinciliyində "Qəbələ" İdman Klubunun təmsilçiləri də rinqdə qüvvəsini sınayıb. 5 gün davam edən birincilikdə iki idmançımız mükafatçılar sırasına düşüb.

Boks Mərkəzində təşkil edilən yarışda Fərid İsmayıllı (69 kq) finala qədər bütün rəqiblərini məğlub edib. Klubumuzun yetirməsi olan gənc boksçu yalnız həlledici qarşılaşmada uduzaraq gümüş medala yiyələnib.

Mübarizəni yarımfinalda dayandıran Sadıq Sadıqov (81 kq) da fəxri kürsüyə qalxıb. İdmançımız birinciliyin bürünc mükafatını qazanıb.



### Bir qızıl, bir bürünc medal

"Qəbələ" İdman Klubunun taekvondoçusu Milad Beigi Harçeqani növbəti uğuruna imza atıb. İdmançımız 51 ölkədən 1615 iştirakçının qatıldığı sayca 6-cı "Turkish Open" beynəlxalq turnirində qüvvəsini sınayıb. Taekvondoçumuz Türkiyənin Antalya şəhərində keçirilən G1 kateqoriyalı turnirdə 80 kq çəki dərəcəsində mübarizə aparıb. O, bütün rəqiblərinə qalib gələrək qızıl medalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yarışda iştirak edən digər təmsilçimiz Məhəmməd Məmmədov (68 kq) isə yarımfinala qədər irəliləyib. Finalın bir addımlığında məğlub olan idmançımız bürünc mükafata yiyələnib.

## Qəbələ rayon polis şöbəsi polisə ictimai dəstək üzrə vakant olan mülki vəzifələrə qəbul ELAN EDİR

Polisin qanunla müəyyən edilmiş vəzifələrinin icrasında geniş vətəndaş iştirakçılığına nail olunması, əhalinin bütün qrup və təbəqələri ilə qarşılıqlı əlaqələrin və etimad mühitinin möhkəmləndirilməsi məqsədi ilə Qəbələ rayon polis şöbəsində polisə ictimai dəstək üzrə 11 vakant mülki vəzifəyə qəbul elan edilir.

Ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış Azərbaycan Respublikasının vətəndaşları 2019-cu il mart ayının 31-dək aşağıda göstərilən sənədlərlə Qəbələ RPŞ-yə müraciət edə bilərlər:

**1. şəxsiyyət vəsiqəsinin surəti;**
**2. təhsil haqqında sənəd;**
**3. hərbi biletin surəti;**
**4. tərcümeyi-hal;**
**5. 9x12 sm ölçüdə 1 ədəd, 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.**

Vətəndaşların polis orqanları ilə əməkdaşlığı onların ictimai asayişin qorunması üzrə vəzifələrin yerinə yetirilməsində iştirakını nəzərdə tutur və bu, onların qanunvericiliklə qadağan olunmayan fəaliyyətlə məşğul olmalarını istisna etmir.

**Ünvan:** Qəbələ ş. H.Əliyev prospekti, 141 əlaqə tel: (024) 205-18-28


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


## İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Çuxur Qəbələ kənd sakini **Şirinova Xuraman İsmayıl qızına** verilmiş JN seriyalı 224 A nömrəli (kod 40617018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Çuxur Qəbələ kənd sakini **Rzayev Cəlal İsmayıl oğluna** verilmiş JN seriyalı 060 A nömrəli kod (40617018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Çuxur Qəbələ kənd sakini **Rzayev Cəlal İsmayıl oğluna** verilmiş JN seriyalı 060 B nömrəli kod (40617018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 20 dekabr 1999-cu il tarixli 20 saylı qərarı ilə Yemişanlı kənd sakini **Məmmədşərifov İmran Seyfəddin oğluna** verilmiş JN seriyalı 211 A nömrəli (kod 40615048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzetinin kollektivi sabiq iş yoldaşları
**XƏDİCƏ EYVAZOVANIN**
vəfatı ilə əlaqədar ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1750